# ”Avro-Asiya İnşaat Korporasiyası “Evrascon” ASC

## Bakı şəhəri, Azərbaycan Respublikası

### 31 dekabr 2022-ci il tarixdə başa çatan il üçün

### Maliyyə hesabatlarına dair Qeydlər

---

**1.Hüquqi statusu və işgüzar fəaliyyət**

1.1”**Avro-Asiya İnşaat Korporasiyası “Evrascon” Açıq Səhmdar Cəmiyyəti müsdəqil** təsərrüfat subyekti olmaqla, öz fəaliyyətini Azərbaycan Respublikası Mülki Məcəlləsi, qüvvədə olan digər qanunvericilik aktları və bu nizamnamə əsasında həyata keçirir və əsas məqsədi mənfəət götürməkdən ibarət olan kommersiya təşkilatıdır.30.04.2003-cü il tarixdə 0103-P13-37675 dövlət qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikası Ədliyyə Nzirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı bölgə şöbəsində dövlət qeydiyyatına alınmış, 07.09.2012-ci il tarixdə Azərkörpü-Autobahn MMC-nin (VÖEN 1001425021) ona qosulması nəticəsində yenidən təşkil edilmiş Azərkörpü ASC-nin adının dəyişdirilib”**Avro-Asiya İnşaat Korporasiyası “Evrascon” Açıq Səhmdar** Cəmiyyəti olması ilə əlaqədər cəmiyyətin nizamnaməsinin 4-cü redaksiyası qeydiyyata alınmışdır.

1.2 Cəmiyyət 08.01.2013-cü il tarixdə Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatına alnaraq ona 08.01.2013–cü il tarixli 1000085511 saylı qeydiyyat şəhadətnaməsi (VÖEN) verilmişdir.

1.3 Hüquqi ünvan Bakı şəhəri Yasamal rayonu 529-cu məhəllə.

1.4 Menecment və nəzarət Direktorlar Şürasının Sədri İsmiyev İsmayıl Əfəndi Hacımuradoviç tərəfindən həyata keçirilir.Bu şəxs də Cəmiyyətin payçılarına hesabat verəcək və hazırlanmış maliyyə hesabatları onun tərəfindən imzalanacaq.

**2. Nizamnamə kapitalı**

Cəmiyyətin nizamnamə kapitalı hər birinin dəyəri 2 manat olmaqla 188645 ədəd adi səhmdən ibarət olmaqla 377290 manatdır.26.02.2014-cü il tarixli Bakı Şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsindən verilmiş 1401020006948900 saylı çıxarışa əsasən Cəmiyyətin təsisçisi 51,2481 %-lə İsmiyev İsmayıl Əfəndi Hacımuradoviç və digər şəxslərdir.

**3.Uçot siyasətinin mühüm cəhətləri:**

**İqtisadi asılılıq**

Cəmiyyət əsas etibarilə heç bir şəxsdən və müəssisədən asılı deyildir.

**Hesabatların hazırlanmasının əsasları:**

Ardıcıl surətdə tətbiq olunmuş mühüm uçot siyasətləri aşağıdakılardır:

**Uyğunluq**

Maliyyə hesabatları Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun hazırlanmışdır.

**Uçot konvensiyası**

Maliyyə hesabatları, şərti aktivlər istisna olmaqla, tarixi xərclər əsasında hazırlanmışdır. Şərti aktivlər ədalətli dəyərlə ölçülmüşdür. Tətbiq olunmuş uçot siyasəti əvvəlki illərdə aparılmış uçot siyasətinə uyğundur. Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Manatı (AZN) ilə təqdim edilmişdir.Maliyyə hesabatları törəmə maliyyə alətləri, ticarət üçün saxlanılan və satış üçün mövcud olan maliyyə aktivləri və passivlərinin bazar dəyəri əsasında hazırlanmasıdır; bazar dəyərinin etibarlı ölçü meyarı olmayan alətlər burada istisna təşkil edir. Digər maliyyə aktiv və passivləri, şərti maliyyə aktiv və passivləri amortizasiya olunmuş dəyəri və ya ilkin dəyəri ilə göstərilmişdir.Azərbaycan Respublikasının Milli valyutası Yeni Azərbaycan Manatıdır ("AZN"). Rəhbərlik AZN-İ təşkilatın ölçmə valyutası kimi müəyyənləşdirilmişdir; belə ki, bu valyuta təşkilatın əsas fəaliyyəti və vəziyyətini iqtisadi mahiyyətini əks etdirir. AZN həm də bu maliyyə hesabatları üçün təşkilatın istifadə etdiyi valyutadır.

**Fəaliyyətdə olan müəssisə**

Hazırki maliyyə hesabatları fəaliyyətdə olan müəsisə prinsipi əsasında hazırlanmışdır və buna uyğun olaraq aktivləri satılması və öhdəliklərin yerinə yetirilməsi fəaliyyətin davamlılığı əsasında baş verdiyini göstərir. Cəmiyyətin aktivlərinin bərpa olunması üçün gələcək əmləliyyatı cari və gələcək iqtisadi mühütin asılılığını əhəmiyyətli təsirinə məruz qala bilər. Hazırki maliyyə hesabatlarına Cəmiyyətin fəaliyyətdə olan müəssisə kimi işləməsini qeyri-mümkün edən hər hansı düzəliş edilməmişdir.

**Xarici valyuta əməliyyatları**

Xarici valyutalarda əməliyyatlar əməliyyat günü mövcud olan mübadilə kursu ilə uyğun ölçü valyutasında ifadə olunur. Balans tarixinə xarici valyutada ifadə olunan monetar aktiv və passivlər həmin gün mövcud olan xarici valyuta kursu ilə uyğun ölçü valyutasında əks olunur. Çevrilmə nəticəsində yaranan kurs ilə uyğun ölçü hesabatında tanınır. Xarici valyuta ilə ifadə olunan və ilkin dəyəri ilə göstərilən qeyri-monetar aktiv və passivlər əməliyyat günündə mövcud olan xarici valyuta kursu ilə ölçü valyutası olan manata çevrilir.

**Nağd pul və onun ekvivalentləri**

Nağd pul və onun ekvivalentlərinə bir gün ərzində nağd pula çevrilə bilən vasitələr aiddir.

**Maliyyə alətləri**

Maliyyə alətlərinə maliyyə aktivləri və maliyyə öhdəlikləri aid edilir. Maliyyə aktivləri və maliyyə öhdəlikləri Cəmiyyətin balansına, Cəmiyyət alətin müqavilə şərtlərinin tərəfi olduğu andan daxil edilir. Maliyyə alətlərində nağd pul və ya digər maliyyə aktivlərini almaq, potensial sərfəli şərtlərlə maliyyə alətlərinin dəyişdirilməsinə müqavilə hüququ və ya kapital qoyuluşu alətləri aiddir. Maliyyə öhdəliklərinə nağd pul və ya digər maliyyə aktivlərini vermək və potensial sərfəli olmayan şərtlərlə maliyyə alətlərinin dəyişdirilməsinə dair müqavilə öhdəliyi daxildir.Ticarət alətləri elə alətlərdir ki, Cəmiyyətin onları əsas etibarilə qısa-müddətli gəlir əldə etmək məqsədi ilə saxlayır. Buraya investisiyalar və maliyyə alətlərinin qısa satışından yaranan öhdəliklər daxildir.

**Tanıma**

Cəmiyyət ticarət üçün saxladığı maliyyə alətlərini və satış üçün yararlı olan aktivləri həmin aktivləri almaq üçün öhdəlik götürdüyü tarixdən etibarən tanıyır.Ödəmə müddəti tamamlananadək olan aktivlər və ya törəmə kredit və alacaqlar onların Cəmiyyət tərəfindən ifadə olunduğu və ya yaradıldığı tarixdən tanınır.

**Ölçmə**

Maliyyə alətləri əməliyyat xərcləri daxil olmaqla ilkin dəyəri ilə ölçülürlər.

İlkin tanımadan sonra bütün ticari və satış üçün yararlı olan alətlər ədalətli dəyərlə ölçülür; Bütün qeyri-ticari maliyyə öhdəlikləri, törəmə kredit və alacaqlar və ödəmə müddəti tamamlanadək saxlanılan aktivlər itkilər çıxılmaqla amortizasiya olunmuş dəyərləri ilə ölçülür. Amortizasiyası hesablanmış dəyər effektiv faiz dərəcəsi metodu ilə hesablanır. İlkin əməliyyat xərcləri daxil olmaqla diskontlar uyğun alətin balans dəyərinə daxil edilir və alətin efektiv faiz dərəcəsi əsasında amortizasiyası hesablanır.

**Ədalətli dəyərin ölçülməsinin prinsipləri**

Maliyyə alətlərinin ədalətli dəyəri əməliyyat xərcləri nəzərə alınmadan onların balans tarixində bazarda müəyyən olunmuş qiymətinə əsaslanır. Əgər müəyyən olunmuş bazar qiyməti mövcud deyilsə, alətin ədalətli dəyəri qiymətləndirmə modelləri və ya diskontlaşdırılmış pul vəsaitləri axını üsullarından istifadə etməklə qiymətləndirilir.Diskontlaşdırılmış pul vəsaitləri axını üsulundan istifadə olunduqda, gələcək pul vəsaitlərinin qiymətləndirilməsi rəhbərliyin ən yaxşı qiymətləndirmələrinə əsaslanır və diskont dərəcəsi hər hansı bir bənzər alət üçün eyni şərtlərlə balans tarixində qüvvədə olan uyğun bazar dərəcəsidir. Qiymətləndirmə modellərindən istifadə olunduğu zaman, xərclər balans tarixində bazarla bağlı olan ölçmələrə əsaslanır.Mübadilə yolu ilə ticarəti həyata keçirilməyən törəmə alətlərin ədalətli dəyəri balans tarixində kontrakt ləğv etmək üçün mövcud bazar şəraitini və tərəflərin cari kredit qabiliyyətlərini nəzərə almaqla Cəmiyyətin alacağı və ya ödəyəcəyi məbləğlə qiymətləndirilir.

**Sonrakı ölçmələr əsasında yaranan gəlir və xərclər**

Bütün ticari alətlərin ədalətli dəyərindəki dəyişiklikdə və satış üçün mövcud olan qiymətli kağızların ticarətindən yaranan gəlir və xərclər mənfəət və zərər hesabatında əks olunur.

**Tanınmama**

Hər hansı bir maliyyə aləti o zaman tanınırmı ki, Cəmiyyət həmin aktivlərə şamil edilən qanuni hüquqları üzərindəki nəzarəti itirir.Bu o zaman baş verir ki, ya hüquqlardan tam istifadə edilib, onların müddəti başa çatıb və ya həmin hüquqlar dayandırılıb. Hər hansı maliyyə öhdəliyi o zaman tanınmır ki, o ləğv olunur.Satış üçün mövcud olan aktivlər və ticarət məqsədilə saxlanılan aktivlər satıldıqda tanınmır və alıcı tərəfindən ödəniləcək uyğun alacaqlar Cəmiyyət həmin aktivi satmaq öhdəliyi götürdüyü balans tarixindən etibarən tanınır. Cəmiyyət tanımama nəticəsində yaranan gəlir və itkini müəyyənləşdirmək üçün spesifik identifikasiya metodundan istifadə edir.Ödəmə müddəti bitənədək saxlanılan alətlər və törəmə kredit və alacaqlar Cəmiyyət tərəfindən dövr edildiyi gündən etibarən tanınmır.

**Əvəzləşdirmə**

Balans hesabatında maliyyə aktivlərinin və öhdəliklərinin əvəzləşdirilməsi və alınan xalis məbləğin hesabatda əks olunmasına yalnız o həyata keçirilir ki, uçota alınmış məbləğlərin əvəzləşdirilməsi üçün hüquqi əsas vardır və eyni zamanda xalis əsasda aktivi əldə etmək və ya passivi yerinə yetirmək niyyəti mövcuddur.

**Bərpa oluna bilən məbləğin hesablanması**

Cəmiyyətin ödəmə müddəti bitənədək saxlanılan qiymətli kağızlara qoyduğu investisiyaların bərpa oluna bilən məbləği və alacaqları gələcəkdə gözlənilən pul vəsaitlərinin hərəkətinin hazırki dəyərinin hesablanması qaydası ilə, aktivlərdə ayrılmaz hissə olan əsas effektiv faiz dərəcəsinin çıxılması (diskontlaşdırılması) yolu ilə hesablanır.

Cəmiyyətin ticari investisiyaları və satış üçün nəzərdə tutulan əmlakları bərpa oluna bilən məbləği onların ədalətli dəyəridir.

**Dəyərdən düşmənin geri qaytarılması**

Ödəmə müddəti bitənədək saxlanılan qiymətli kağızlarla bağlı dəyərdən düşmə itkisi və ya alacaqlar o halda geri qaytarılır ki, bərpa oluna bilən məbləğdə böyük artımın dəyərdən düşmə tanındıqdan sora baş verən hər hansı bir hadisəyə obyektiv şəkildə aidiyyəti ola bilsin.Digər aktivlərlə bağlı dəyərdən düşmə itkisi o zaman geri qaytarılır ki, bərpa oluna bilən məbləğin müəyyənləşdirilməsi üçün istifadə olunan hesablamalarda dəyişikliklər olsun. Hər hansı dəyərdən düşmə itkisi yalnız o həddə qədər geri qaytarlır ki, aktivin balans dəyəri əgər heç bir dəyərdən düşmə tanınmasa, köhnəlmə və amortizasiya çıxılmaqla müəyyən edilə bilən balans dəyərindən çox olmasın.

**Faizli borclar**

Faizli borclar ilkin olaraq çəkilən əməliyyat xərcləri çıxılmaqla qalıq dəyəri ilə tanınırlar. İlkin tanınmadan sonra, faizli borclar ödənilmiş dəyəri çıxmaqla göstərilir; bu zaman ilkin və qaytarılmış məbləğlər arasındakı fərq nəzərə alınır. Ödənilən faiz dəyərı mənfəət və zərər hesabatında tanınır. Əgər borclar təkrar alınırsa və ya ödəmə müddətindən öncə bağlanırsa geri ödənilən məbləğ üzrə hesablanmış faiz məbləğilə balans məbləği arasındakı fərq həmin anda mənfəət və zərər hesabatında tanınır.

**Ehtiyatlar**

Hər hansı bir ehtiyat balans hesabatında o zaman tanınır ki, Cəmiyyətin keçmiş bir hadisə nəticəsində hüquqi və konsturuktiv öhdəliyi vardır və həmin öhdəliyi yerinə yetirmək üçün iqtisadi mənfəətin kənara axını, başqa sözlə iqtisadi zərər yarana bilər. Əgər təsir maddi xarakter daşıyırsa, ehtiyatlar gələcək nağd pul axının cari dəyərinin bazar qiymətləndirilməsini əks etdirən vergidən öncəki dərəcə əsasında gələcəkdə gözlənilən pul vəsaitləri axının diskontlaşdırılması yolu ilə müəyyən olunur.

**Dividentlər**

Cəmiyyətdə divident;ehtiyat yarandıqda dividentləri elan etmək və ödəməyi Azərbaycan Respublikasının qanunvericlik aktları və qaydaları ilə tənzimləyir.Dividentlər elan olunduğu günə olan bölüşdürülməmiş mənfəətə düzəliş kimi əks olunur.

**Vergi**

Maliyyə hesabatlarında daxil edilmiş mənfəətdən vergi, hesabat tarixinə Azərbaycanda qüvvədə olan qanunvericiliyə əsasən müəyyənləşdirilir. Mənfəət və zərər hesabatında il üçün mənfəət vergisi məbləğinə cari vergi və təxirə salınmış vergidə dəyişikliklər daxildir. Cari vergi, balans tarixinə mövcud olan vergi dərəcələri ilə il üçün gözlənilən, vergiyə cəlb oluna bilən gəlir əsasında hesablanır. Mənfəətdən vergidən başqa digər vergilər əməliyyat xərclərinə daxil edilmişdir.Öhdəliklər üsulu ilə müəyyən olunan təxirə salınmış gəlir vergisi, aktivlərin və öhdəliklərin vergi bazası və onların maliyə hesabatı məqsədi ilə qəbul olunmuş qiymətləri arasında yaranmış müvəqqəti fərqdən irəli gəlir. Təxirə salınmış vergi aktivlərin o zaman uçota alınır ki,gələcəkdə həmin müvəqqəti fəqlərə görə vergiyə cəlb oluna biləcək mənfəətin yaranması ehtimal edilsin.Əsas müvəqqəti fərqlər müxtəlif amortizasiya normalarına, kreditlər üzrə itkilər üçün ehtiyatlara, hesablanmış faiz gəlirlərə və xərclərə, mənfəətdən vergi hesablamalarına və hazırki maliyə hesabatlarına görə yarana bilər.Mənfəət vergisi cari və təxirə salınmış vergini əhatə edir. Birbaşa konkret balans maddəsində tanınan vergi istisna olmaqla, bu halda vergi həmin maddədə tanınır, mənfəət vergisi mənfəət və zərər hesabatında tanınır.Cari vergi xərci qüvvədə olan vergi dərəcələri və ya balans hesabatında qüvvədə olan dərəcələr və keçmiş illərlə bağlı ödənilməli olan vergi düzəlişlərindən istifadə etməklə il ərzində qazanılmış, vergiyə cəlb olunan mənfəətə görə ödənilməsi nəzərdə tutulan vergidir.

**Divident gəliri**

Cəmiyyətin nəzarəti və əhəmiyyətli təsiri olmadığı Cəmiyyətlərdəki investisiyalarından əldə etdiyi divident gəliri mənfəət və zərər hesabatında elan olunduğu gündən etibarən tanınır.

**4.Amortizasiya**

Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır.

Digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə, aktivlərin qalıq dəyərinə və ya yenidən qiymətləndirilmiş dəyərinə vurmaqla həyata keçirilir. Faydalı istismar müddəti və ya illik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir:

- Binalar - 40 il və ya 7%
- Maşın avadanlığı - 5 il və ya illik 20%
- İT avadanlıqları - 5 il və ya illik 25%
- Nəqliyyat vasitələri - 5 il və ya illik 25%
- Mebel və təsərrüfat inventarları - 5 il və ya illik 20%
- Sair əsas vəsaitlər - 5 il və ya illik 20%

Aktivlərin ləğv edilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.Əsas vəsaitlərin xaricolmasmdan mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir

## 5.Torpaq,Tikili və avandanlıqlar

| | Binalar,tikililər qurğular | Maşınlar və avadanlıqlar | Nəqliyyat vasitələri | Hesablama texnikası | Digər əsas vəsaitlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Balans dəyəri: Yanvar 1,2022** | | | | | | **355408071** |
| Alınanlar | 2424 | 4440690 | 3470828 | 16500 | 41913 | 7972355 |
| Silinib: | | | | | | 10829463 |
| **Dekabr 31,2022** | | | | | | **352550963** |
| Hesablanmış köhnəlmə: | | | | | | |
| **Yanvar 1,2022** | | | | | | **(285258935)** |
| Hesablanmışdır | | | | | | (9209590) |
| **Silinib:** | | | | | | 8259076 |
| **Dekabr 31,2022** | | | | | | **(286209449)** |
| **Qalıq dəyəri:** | | | | | | |
| **Dekabr 31,2021** | | | | | | **70149136** |
| **Dekabr 31,2022** | | | | | | **66341514** |

## 6.Ehtiyatlar

| | 2022 | 2021 |
|---|---|---|
| Material ehtiyatları | 32294840 | 33784396 |
| | **32298840** | **33784396** |

## 7.Qısamüddətli debitor borclar

| | | |
|---|---|---|
| Podratçılarla | 113384822 | 86787423 |
| Hesablaşma hesabı | **113384822** | **86787423** |

## 8.Pul vəsaitləri və onun ekvivalentləri

| | | |
|---|---|---|
| Kassa | - | - |
| Hesablaşma hesabı | 1924545 | 2384185 |
| Tələblərə əsasən açl.n hesablar | - | - |
| | **1924545** | **2384185** |

## 9.Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər

| | | |
|---|---|---|
| Uzunmüddətli bank krediti | 149521006 | 138322540 |
| | **149521006** | **138322540** |

## 10.Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər

| | | |
|---|---|---|
| Qısamüddətli bank krediti | - | - |

## 11. Nizamnamə kapitalı

| | | |
|---|---|---|
| Ödənilmiş Nizamnamə kapitalı | 377290 | 377290 |

## 12.Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)

| | | |
|---|---|---|
| Keçmiş illərin bölüşdürülməmiş mənfəəti | 1949468 | 3230708 |
| Çıxılsın ödənilmiş dividentlər | - | - |
| Ödənilmiş cərimə və sanksiyalar | - | - |
| Düzəlişlər | | |
| Hesabatda tanınmamış xərc və gəlir | (3996448) | (3998290) |
| Cari ilin mənfəəti (zərəri) | 2512509 | 2117050 |
| | **842819** | **2326758** |

## 13. Vergi və sair ödənişlər üzrə öhdəliklər

| | | |
|---|---|---|
| Vergi öhdəlikləri | 23164225 | 10125630 |
| | **23164225** | **10125630** |

## 14.Qısamüddətli kreditor borcları

| | | |
|---|---|---|
| Malsatan və podratçılara | 14675724 | 26621366 |
| Əməyin ödənişi üzrə | - | - |
| Alınmış avanslar | 40832528 | 28631342 |
| Digər qısamüddətli kreditor borclar | 260387547 | 260387547 |
| | **315895799** | **315640255** |

| **15 . Əsas əməliyyat gəlirləri** | **2022** | **2021** |
|---|---|---|
| Məhsulların, iş və xidmətlərin satışından | 94224659 | 68765967 |
| Malların təqdim edilməsindən | 9588304 | 3529057 |
| Aktivlərin təqdim edilməsindən | 2699715 | 3130810 |
| Əməliyyat icarəsindən | 379535 | 945445 |
| Sair maliyyə gəlirləri | 1779008 | 1136962 |
| | **108671221** | **77508205** |

## 16. Satışın maya dəyəri

| | 2022 | 2021 |
|---|---|---|
| Əmək haqqı | (18307558) | (16156336) |
| Sosial sığorta haqları | (2775838) | (2431031) |
| Xammal və materiallar | (43010257) | (24073512) |
| Malların dəyəri | (-) | (-) |
| İcarə haqqı | (1708275) | (728722) |
| Ezamiyyə xərcləri | (358469) | (363623) |
| Qaz xərcləri | (287672) | (129590) |
| Su və kanalizasiya xərcləri | (53899) | (34518) |
| Yanacaq xərcləri | (7283547) | (6310494) |
| Rabitə xərcləri | (95420) | (82323) |
| Enerji xərcləri | (497913) | (301079) |
| Bank xidməti üzrə xərclər | (185133) | (154844) |
| Nəqliyyat xərci | (1025980) | (822269) |
| Təmir xərcləri | (2391045) | (1126525) |
| Amortizasiya xərcləri | (11776057) | (10835891) |
| Digər xərclər | (9176621) | (7658726) |
| | **(98933684)** | **(71209483)** |

## 17. İnzibati xərclərin elementləri

| | | |
|---|---|---|
| Sığorta haqları | (391951) | (129033) |
| Torpaq vergisi | (9186) | (39200) |
| Əmlak vergisi | ( 682453) | (544978) |
| Mədən vergisi | (357370) | (53100) |
| | **(1440960)** | **(766311)** |

## 18.Maliyyə xərclərin elementləri

| | | |
|---|---|---|
| 1.Borca görə və onunla bağlı olan xərclər | (2693812) | (2452940) |
| 2. Məzənnə xərci | (2462129) | (433159) |
| | **(5155941)** | **(2886099)** |

## 19. Cari ilin bölüşdürülməmiş mənfəəti

| | | |
|---|---|---|
| Vergi qoymadan əvvəl mənfəət | 3140636 | 2646313 |
| Mənfəət vergisi | (628127) | (529263) |
| | **2512509** | **2117050** |

## 20. Əlaqəli tərəflərlə əməliyyatlar

Hazırki maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Maliyyə hesabatı ilə əhatə olunan dövrdə əlaqəli tərəflərlə əməliyyatlar aparılmamışdır.

## 21. Maliyyə risklərin idarə edilməsi

**Bazar riski**

**Xarici valyuta riski.** Cəmiyyət beynəlxalq kredit təşkilatlarından kredit almır və müxtəlif valyutalarda uzunmüddətli kreditlər cəlb etmir. Buna görə də xarici valyuta riskinə məruz qalmır.

**Faiz dərəcəsi riski.** Cəmiyyət, faiz hesablanan uzunmüddətli kreditlərdəki bazar dəyərinin dəyişməsi nəticəsində faiz dərəcəsi riskinə məruz qalır. Əsas uzunmüddətli və qısamüddətli kreditlər üzrə faiz dərəcəsi haqqında məlumat Qeydlərdə açıqlanmır. Cəmiyyətin əhəmiyyətli dərəcədə faizli aktiv və passivləri yoxdur. Cəmiyyət faiz dərəcəsi risklərini əvəzləşdirmək üçün hər hansı hecinq vasitəsindən istifadə etmir.

**Kredit riski.** Cəmiyyəti potensial olaraq kredit riskinə məruz qoyan maliyyə aktivləri pul və pul vəsaitlərinin ekvivalenti, derivativ maliyyə alətləri və banklara və maliyyə institutlarına yerləsdirilmiş depozitlər, həmçinin, topdan və pərakəndə satış üzrə kredit təsiri, qüvvədə olan alacaqlar və öhdəliyə götürülmüş əməliyyatlar daxil olmaqla, təşkil edir.Cəmiyyəti potensial olaraq kredit riskinə məruz qoyan maliyyə aktivləri əsas etibarilə debitor borclarından ibarətdir. Bu borcların ödənilməsi əhəmiyyətli dərəcədə hökumətin digər dövlət müəssisələri ilə qarşılıqlı əvəzləşdirmələr aparması niyyətindən asılıdır.Nağd pul, qoyuluş zamanı onun qaytarılmaması üzrə minimal riskə malik olan maliyyə qurumlarında yerləşdirilir.

**Likvidilik riski.** Düzgün likvidlik risk idarəsi kifayət qədər pul vəsaiti və qiymətli kağızların təmin edilməsi, gözlənilən kredit imkanları vasitəsilə fondun mövcudluğu və bazar mövqeyinin dayandırıla bilinməsi deməkdir. Cəmiyyət likvidlik idarəsi ilə əlaqədər hər hansı bir siyasəti və ya qaydaları mövcud deyil.

**Maliyyə alətlərinin ədalətli dəyəri.** Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arsında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Cəmiyyət tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələn edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqdisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyəbazarlarında aktivliyin həcmini məhdudlaşdırmaq davam edir.Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərini ədalətli dəyərini müəyyən edərkən rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.Maliyyə aktivləri amortizasiya olunmuş maya dyərində əks olunurlar. Normal halda maliyyə aktivlərinin ədalətli dəyəri elə onların qalıq dəyərinə bərabər olur. Sabit faiz dərəcəsi ilə təqdim edilən mliyyə alətlərinin txmini ədalətli dəyəri həmin alətlər ilə bağlı gələcəkdə nəzərdə tutulan pul vəsaitləri axınlarının cari faiz dərəcəsi ilə diskontlandırılmasına əsasən hesablanır. İstifadə olunan diskont dərəcəsi qarşı tərəfin kredit riskinin dərəcəsindən asılıdır.Depitor borclarının və digər borcların ədalətli dəyəri onların qalıq dəyərinə yaxın rəqəmdir.Öhdəliklərdə də amortizasiya olunmuş maya dəyərində əks olunurlar. Sabit faizli və müəyyən olunmuş ödəmə tarixinə malik və hərrac bazarında qiyməti müəyyənləşməyən alətin ədalətli dəyəri həmin alət ilə bağlı gələcəkdə nəzərdə tutulan pul vəsaitləri axınlarının cari faiz dərəcəsi ilə diskontlaşdırılmasına əsasən hesablanılır. Tələb olunananadək ödənilən depozitlərin ədalətli dəyəri tələb olunan məbləğin ödənilməsi planlaşdırılan ilk gündən etibarən diskonlaşdırılması nəticəsində alınan dəyərə yaxın məbləğə təxmin edilir

**22. Hesabat tarixindən sonra baş vermiş hadisələr**

Hesabat tarixindən sonra hesabata təsir edən hər hansı bir hadisə baş verməmişdir.

**Direktorlar Şurasının Sədri** **Ə.H.İsmiyev**

**Baş mühasib:**

**Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü,**

**Sərbəst Auditor :** **Ş.R.Hüseynov**

AVRO-ASİYA İNŞAAT KORPORASİYASI "EVRASCON"

SƏRBƏST AUDITOR

INDEPENDENT AUDITOR